# ŞƏMKİR RAYONUNUN DEKORATİV BİTKİLƏRİNİN ABŞERONUN LANDŞAFT DİZAYNINDA İSTİFADƏSİ

**Şəlalə Gülməmmədova**

*AR ETN Dendrologiya İnstitutu, Bakı*
*shalala.g@mail.ru*

Azərbaycanı əbəs yerə cənnət adlandırmırlar. Təbiət bu torpaqdan heç nəyi əsirgəməmişdir. Bizim bölgələrimiz əsl gözəlliyin təcəssümüdür. Şəmkir rayonu Azərbaycanın təbii gözəlliyi ilə seçilən regionlarından biridir. Bölgələrdə və Abşeronda landşaft dizaynının inkişafı üçün dekorativ ağacları, kolları və ot bitkilərini öyrənmək, kompozisiyalar yaratmaq lazımdır. Şəmkir rayonunun dekorativ bitkilərinin öyrənilməsi məqsədilə AR ETN Dendrologiya İnstitutunun Landşaft memarlığı laboratoriyasında elmi tədqiqat işləri aparılmışdır. 2023-cü ildə avqust ayının II ongünlüyündə Şəmkir rayonuna elmi ekspedisiya təşkil olunaraq, mədəni dendroflorada müşahidələr aparılmış, 29 fəsilə, 35 cins və 39 növə aid dekorativ ağac, kol və ot bitkilərinin – qırmızı tut (*Morus rubra* L.), ağ zoğal (*Cornus alba* L.), söyüdyarpaq dovşanalması (*Cotoneaster salicifolius* Franch.), buynuzlu fındıq (*Corylus cornuta* Marsh.), fortuna traxikarpusu (*Trachycarpus fortunei* H.Wendl.), sallaq saqovnik (*Cycas revoluta* Thunb.), Arizona sərvi (*Cupressus arizonica* Greene), şişyarpaq şümşə (*İlex aquifolium* L.), mantar palıdı (*Quercus suber* L.), yapon birgözü (*Ligustrum japonicum* Thunb.), Qafqaz xurması (*Diospyros lotus* L.), Benks qızılgülü (*Rosa banksiae* R.Br.), parlaq birgöz (*Ligustrum lucidum* W.T.Aiton), qızılı bambuk (*Phyllostachys aurea* Riviere), lifli yukka (*Yucca filamentosa* L.), bənövşəyi tulbagiya (*Tulbaghia violacea* Harv.), çin ardıcı (*Juniperus chinensis* L.) və s. taksonomik tərkibi, mənşəyi, bitkilərin kompozisiyalarda bioloji və dekorativ xüsusiyyətlərinə görə qruplaşdırılması, kompozisiyaların tərtibatının üsulları, bitkilərin budanması formaları, kiçik memarlıq formalarının istifadəsi öyrənilmişdir. Şəmkir rayonunda park və bağlarda müntəzəm üslubda (həndəsi formalı) və landşaft və ya mənzərəli üslubda (orijinal formalı) kompozisiyalar yaradılmışdır. Tədqiq edilən bitkilər Amerika, Rusiya, Yaponiya, Çin, Avropa, Kanada, Hindistan, Meksika, Afrika, Niderland, Himalay, Qara dəniz sahili, Zaqafqaziya, Koreya, Avroasiya, Kanar adaları, Balkan yarımadası, Asiya, Yeni Zelandiya, Livan mənşəlidir. Kompozisi-

yalar müntəzəm üslubda (həndəsi formalı) və landşaft və ya mənzərəli üslubda (orijinal formalı) tərtib edilmişdir. Müəyyən edilmişdir ki, kompozisiyaların əksəriyyəti landşaft və ya mənzərəli üslubda olan orijinal formalara üstünlük verilmişdir. Kompozisiyalarda əsasən həmişəyaşıl ağac və kollardan, dekorativ ot bitkilərindən istifadə edilmişdir. Kompozisiyaların ətrafında yerləşən kiçik memarlıq formaları ətraf mənzərəni daha da canlandırır. Kiçik memarlıq formalarına fəvvarə, fənər, sütun, heykəl, dibçək, səbət, evcik və s. aiddir. Parkın mərkəzində Üzeyir Hacıbəylinin fortepiano arxasında və mahnı ifa edən Rəşid Behbudovun heykəli kompozisiyaya daha möhtəşəm görünüş verir. 2023-cü ildə sentyabr ayının I ongünlüyündə Abşeronun park və bağlarında elmi tədqiqat işi aparılmış və Şəmkir rayonunun dendroflorasında tədqiq olunan 29 fəsilə, 35 cins və 39 növ dekorativ ağac, kol və ot bitkilərindən Abşeronun park və bağlarında 23 fəsilə, 27 cins və 31 növə aid dekorativ bitkilərin becərilməsi müəyyən edilmiş, onların taksonomik tərkibi, mənşəyi və Abşeronun landşaft dizaynında istifadəsi öyrənilmişdir. Kompozisiya tərtibatının bütün kompleksi struktur elementlərin qarşılıqlı əlaqəsindən asılıdır. Mərkəzdə ən yaxşı görünən yerdə iri, parlaq rəngli çiçəkli bitkilər əkilməlidir. Abşeron şəraitində park və bağlarda 12 ağac, 11 kol, 6 ot və 1 lian bitkisinin istifadə perspektivliyi öyrənilmişdir: bordür – 18 ədəd, tək əkin – 28 ədəd, qrup əkini – 31 ədəd, canlı çəpər – 2 ədəd, alpinari – 2 ədəd və çiçək ləki – 6 ədəd. Aparılan elmi tədqiqat işinin nəticəsində məlum olmuşdur ki, Şəmkir rayonunun mədəni dendroflorasında taksonomik tərkibi, mənşəyi, kompozisiyaların tərtibatında istifadəsi öyrənilən 29 fəsilə, 35 cins, 39 növ dekorativ bitkidən 23 fəsilə, 27 cins və 31 növə aid dekorativ ağac, kol və ot bitkiləri Abşeronun torpaq-iqlim şəraitinə yaxşı uyğunlaşır, perspektivlidir, park və bağlarda müxtəlif formalı kompozisiyaların tərtibatında geniş istifadə oluna bilər.